BİRİNCİ BÖLMƏ

# Kərimli və Əlibəyli Azərbaycana qarşı

*(ərizələrin nömrələri 18475/06 və 22444/06)*

## QƏRAR

Strasburq

10 yanvar 2012-ci il

Bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində göstərilən hallarda qəti olacaq. O, redaktə oluna bilər.

Kərimli və Əlibeyli Azərbaycana qarşı işdə Avropa İnsan Hüquqları Məhkəməsi (Birinci Bölmə) Palata qismində aşağıdakı tərkibdə

Nina Vajiç, *sədr*
*hakimlər*
Elizabet Steyner,
Xanlar Hacıyev,
Mirjana Lazarova Trajkovska,
Yuliya Lafrank,
Linos-Alexandre Sicilianos,
Erik Mose
və Soren Nielsen, *Bölmə Katibi*

6 dekabr 2011-ci ildə qapalı müşavirə keçirərək, həmin tarixdə bu qərarı qəbul edir:

PROSEDUR

Hazırki iş «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın («Konvensiya») 34-cü maddəsinə əsasən Azərbaycan Respublikasının iki vətəndaşı cənab Əli Əmirhüseyn oğlu Kərimli (birinci ərizəçi) və cənab Gülamhüseyn Surxan oğlu Əlibeylinin (ikinci ərizəçi) Azərbaycan Respublikasına qarşı verilən iki ərizəsi (nos. 18475/06 və 22444/06) üzrə müvafiq olaraq 28 aprel və19 may 2006-cı il tarixlərində başlanılmışdır.

2. Ərizəçilər Azərbaycanda işləyən hüquqşünas İ. Əliyev tərəfindən təmsil olunmuşdur. Azərbaycan Hökuməti («Hökumət») nümayəndəsi cənab Ç. Əsgərov tərəfindən təmsil olunmuşdur.

3. Iddiaçılar xüsusilə iddia edirdi ki, müvafiq seçki dairələrində parlament seçkilərin nəticələrin Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilməsi onların Konvensiyanın 1-ci Protokolunun 3-cü maddəsinində nəzərdə tutulan seçki hüquqlarının pozulması ilə nəticələnib.

4. 3 sentyabr 2008-ci ildə (ərizə № 22444/06) və 21 oktyabr 2008-ci ildə (ərizə № 18475/06) Birinci Bölmənin Sədri qərara aldı ki, Hökumətə şikayətlər barədə məlumat verilsin. Məhkəmə həmçinin qərara aldı ki, şikayətin qəbuledilənlik məsələsinə və mahiyyətinə eyni vaxtda baxılsın (29-cu maddəsinin 1-ci bəndi).

FAKTLAR

I. İŞİN HALLARI

5. Hər iki ərizəçi Bakıda yaşayır. Onlar tanınmış müxalif siyasətçilərdir. Birinci ərizəçi 2005-ci ildə keçirilən seçkilərə qədər parlament üzvü olmuşdur. Hər iki namizəd milli qanunverici

orqanına (Milli Məclisə) 6 noyabr 2005-ci ildə keçirilən seçkilərdə Azadlıq Blokunun namizədləri qismində iştirak etmişdirlər.

A. Birinci ərizəçinin seşki dairəsində seçkilərin nəticələri

6. Birinci ərizəçi Dairə Seşki Komissiyası (DSK) tərəfindən bir mandatlı 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə namizəd qismində qeydiyyata alınmışdır. Bu dairədə cəmi iyirmi səkkiz seçki məntəqəsi mövcud idi.

7. 2005-ci ilin 7 noyabr tarixində Azadlıq Blokunun nümayəndələri Mərkəzi Seçki Komissiyasina (MSK) bir neçə şikayət ərizəsi verərək seçki günündə seçki qanunvericiliyinin hökümət yönümlü namizədin xeyrinə dəfələrlə pozulmasını qeyd etmiş və bütün dairə üzrə seçki nəticələrinin ləğv edilməsini tələb etmişdir.

8. 8 noyabr 2006-cı il tarixində MSK 31 saylı Suraxanı ikinci seçki dairəsinin on seçki məntəqəsində seçki qanunvericiliyinin pozulması səbəbindən seçkilərin nəticələrini ləğv etdi. MSK bütövlükdə həmin dairə üzrə seçkinin nəticələrini ləğv etmədi.

9. Bir müddət sonra MSK öz rəsmi internet səhifəsində qalan on səkkiz seçki məntəqəsində səsvermənin nəticələrinə əsaslanaraq 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə seçkinin ilkin nəticələrini dərc edərək ərizəçinin 3,549 səslə ondan sonra ən çox səs toplayan (3,515 səs) rəqibini qabaqlayaraq qələbə çalmasını elan etdi.

B. İkinci ərizəçinin seçki dairəsində seçkilərin nəticələri

10. İkinci ərizəçi bir mandatlı 69 saylı Cəlilabad-Masallı-Bilesuvar Seçki Dairəsindən namizədliyini irəli sürmüşdür.

11. 6 noyabrda seçki nəticələrinin DSK tərəfindən rəsmi hesablanmasından sonra, DSK *səsvermənin nəticələrinə dair protocol* tərtib etdi və həmin protokola əsasən ərizəçi seçki dairəsi üzrə 4,264 səs toplamışdır. Ondan sonra ən çox səs toplayan namizəd isə 3,575 səs toplamışdır. DSK-nın protokoluna əsasən ərizəçi seçkidə qalib gəlmişdir.

12. DSK-nın səsvermənin nəticələrinə dair protokolu təsdiqlənmək üçün MSK-ya təqdim edilmişdir.

C. *Seçkilərin ümumi yekunları haqqında MSK-nın protokolu*

13. *Seçkilərin ümumi yekunları haqqında MSK-nın protokolunda* birinci ərizəçi 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə və ikinci ərizəçi 69 saylı Cəlilabad-Masallı-Bilesuvar Seçki Dairəsin üzrə seçilmiş namizədlər kimi qeyd edilmişdir.

14. Bütövlükdə ölkə üzrə nəticələrə gəldikdə isə, MSK dörd seçki dairəsi üzrə seçkilərin nəticələrini ləğv etmiş və hər iki ərizəçinin seçki dairələri də daxil olmaqla 121 seçki dairəsi üzrə nəticələri təsdiqləmişdir.

15. 23 noyabr 2005-ci il tarixində MSK-nın nəticələri DSK-nın protokolu və digər sənədləri ilə birgə yoxlama və təsdiqləmə üçün Konstitusiya Məhkəməsinə təqdim edildi.

D. Ərizəçilərin seçki dairələrində seçki nəticələrinin Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilməsi

16. 1 December 2005-ci il tarixli qərarı ilə Konsitusiya Məhkəməsi yalnız 115 seçki dairəsində seçkilərin nəticələrini təsdiq etdi və qalan altı dairədə seçki nəticələrini ləğv etdi. Qərarın müvafiq hissəsində bunlar qeyd edildi:

"Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanlandığı 30 noyabr 2005-ci il tarixli məktubunda Azərbaycan Respublikasının Prokurorluğu göstərmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərlə əlaqədar qanun pozuntularına yol verilməsi barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından və müvafiq dairə seçki komissiyalarından Baş Prokurorluğa cinayət tərkibli ehtimal edilən cəmi 72 müraciət daxil olmuşdur. Həmin müraciətlərin araşdırılması nəticəsində 11 cinayət işi (bir neçə dairədə bir sıra qeydiyyata alınmış namizəd və seçki komissiyalarının üzvlərinə qarşı), o cümlədən ... seçki sənədlərini saxtalaşdırdıqlarına görə ... 31 saylı Suraxanı ikinci seçki dairəsinin 10 məntəqə seçki komissiyasının sədrləri və üzvləri (və) qulluq səlahiyyətlərindən sui-istifadə etdiklərinə görə 69 saylı Cəlilabad—Masallı—Biləsuvar dairə seçki komissiyasının 4 üzvü barəsində cinayət işləri başlanılmışdır".

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən tələb olunmuş əlavə sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş 121 dairə seçki komissiyalarının protokollarından 115 dairə seçki komissiyalarının protokolları Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun hesab edilməlidir.

Qalan 6 (altı)—31 saylı Suraxanı ikinci, ... 69 saylı Cəlilabad—Masallı—Biləsuvar... dairə seçki komissiyalarının protokolları Seçki Məcəlləsinin tələblərinə cavab vermədiyindən, həmin dairələr üzrə seçkilərin nəticələri təsdiq oluna bilməz....

... Konstitusiya Məhkəməsinin Plenumu qərara aldı:

:

1. seçki nəticələri təsdiq edilsin [115 adı çəkilən seçki dairəsində].

2. seçkilərin nəticələri təsdiq edilməsin ... 31 saylı Suraxanı ikinci seçki dairəsi, 69 saylı Cəlilabad—Masallı—Biləsuvar dairəsi [və digər dörd seçki dairəsi].

3. Qərar elan olunduğu andan qüvvəyə minir..."

17. Konstitusiya Məhkəməsi nəticələri ləğv edilən bütün seçki dairələri üzrə 13 May 2006-ci il tarixinə təkrar seçkilər təyin etdi.

II. Müvafiq yerli qanunvericilik

A. Azərbaycan Respublikası Konstitusiyası

18. 86-cı maddə bunları nəzərdə tutur:

M a d d ə 8 6 . Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi

“Seçkilərin nəticələrinin düzgünlüyünü qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir”.

B. Seçki Məcəlləsi

19. Seçki gününün sonunda seçki məntəqəsində səslər hesablanandan sonra Məntəqə Seçki Komissiyası səsvermənin nəticələrinə dair rəsmi protocol tərtib edir (üç nüsxədə) və seçki məntəqəsində səsvermənin nəticələrini sənədləşdirir (106.1-106.6-cı maddələr).

Məntəqə Seçki Komissiyanın Protokolun 1 nüsxəsi 24 saatdan gec olmayaraq müvafiq sənədlərlə birgə müvafiq DSK-ya göndərilir (maddə 106.7).

DSK məntəqə seçki komissiyanın protokolunun qanunvericiliyin tələblərinə cavab verməsini və hər hansı uyğunsuzluğun olub-olmamasını yoxlayır (maddə 107.1).

Məntəqə seçki komissiyalarının protokollarının təqdim olunmasından sonra DSK səsvermə günündən 2 gün keçənədək olan bütün seçki məntəqələrinin nəticələrini hesablayır və dairə üzrə səsvermənin ümumiləşdirilmiş nəticələrini əks etdirən protokol tərtib edir (maddə 107.2).

Dairə seçki komissiyasının protokolunun 1 nüsxəsini, digər müvafiq sənədərlə birgə səsvermə günündən 2 gündən gec olmayaraq Mərkəzi Seçki Komissiyasına göndərilir (maddə 107.4).

MSK DSK-nın protokolunun qanunvericiliyin tələblərinə cavab verməsini və hər hansı uyğunsuzluğun olub-olmamasını yoxlayır (maddə 108.1) və bütün dairələr üzrə səsvermənin nəticələrini əks etdirən son protokolunu tərtib edir (maddə 108.2).

20. Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokollarda (onlara əlavə edilən digər sənədlər də daxil olmaqla) səsvermə günündən başlayaraq ən geci 4 gün müddətində səhvlər, yolverilməz düzəlişlər və uyğunsuzluqlar aşkar etdikdə, o, müvafiq seçki dairəsində səslərin yenidən hesablanması haqqında qərar qəbul edə bilər (maddə 108.4).

21. Seçki nəticələrinin etibarsız hesab edilməsi barədə tələbə baxarkən seçki komissiyası vətəndaşların və vəzifəli şəxslərin məlumatını dinləmək, zəruri sənəd və materialları almaq hüququna malikdir (maddə 112.8).

22. Seçilməyən namizədlərə seçilməkdə kömək göstərilməsi ilə əlaqədar baş verən pozuntular aşkar edildikdə, onlar seçkilərin yekunları barəsində qərarın ləğv edilməsi üçün əsas sayıla bilməz (Article 114.5).

23. Səsvermənin nəticələri ləğv edildiyi seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etdiyi halda DSK və ya MSK həmin birmandatlı seçki dairəsi üzrə seçkinin nəticələrini bütövlükdə ləğv edə bilər (maddə 170.2.2).

24. Konsitusiyanın 86-cı maddəsinə əsasın, seçkilərin nəticələri Konsitusiya Məhkəməi tərəfindən yoxlanılır və təsdiq edilir (maddə 171.1).
Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 20 gün keçənədək dairə seçki komissiyalarının protokollarını (onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlayır, 48 saat müddətində Konstitusiya Məhkəməsinə təqdim edir (maddə 171.2).

Konstitusiya Məhkəməsi göstərilən sənədləri aldıqdan sonra 10 gün müddətində müvafiq mütəxəssisləri cəlb etməklə həmin sənədlərin bu Məcəlləyə uyğunluğunu yoxlayır. Yoxlama prosesi tələb etsə, on günlük müddət artırıla bilər (Article 171.3).

Dairə seçki komissiyalarının protokolları Seçki Məcəlləsinə tələblərinə cavab verdikdə Konstitusiya Məhkəməsi seçkilərin yekunlarını təsdiq edir. Bu qərar qətidir (maddə 171.4).

C. Konstitusiya Məhkəməsi haqqında qanun

25. 42-ci maddənin müvafiq hissəsi bunları nəzərdə tutur:

*Maddə 42. Xüsusi konstitusiya icraatında maraqlı subyektlər*

> "42.1. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsində…. nəzərdə tutulmuş hallarla əlaqədar Konstitusiya Məhkəməsinə sorğu və ya müraciət vermiş orqanlar və bu cür sorğu və ya müraciətlər əsasında mənafelərinə toxunulan orqanlar və şəxslər xüsusi konstitusiya icraatının maraqlı subyektləridir.
>
> 42.2. Xüsusi konstitusiya icraatında maraqlı subyektləri onların nümayəndələri təmsil edə bilərlər."

26. 43-cü maddəyə əsasən, *xüsusi konstitusiya icraatında* tərəflərin və maraqlı subyektlərin *inter alia* aşağıdakı hüquqları vardır: (a) Konstitusiya Məhkəməsinin iclaslarında iştirak və çıxış etmək; (b) sübutları və digər materialları təqdim etmək; (c. işə baxılmasına dair vəsatət və təkliflər vermək; (d) suallara cavab vermək; (e) hakimlərə etirazlar etmək; (f) şahid və ekspertlərin dəvət olunmasını xahiş etmək və sairə.

27. 54-cü maddənin müvafiq hissəsi bunları nəzərdə tutur:

*Maddə 54. Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi haqqında məsələyə baxılmasının xüsusiyyətləri*

> "54.1. Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə görə Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir. Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiq edilməsi qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilir.

.

...

> 54.5. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün keçirilən Konstitusiya Məhkəməsi Plenumunun iclasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri və üzvləri, habelə Konstitusiya Məhkəməsi tərəfindən dəvət edilmiş digər şəxslər iştirak edirlər...

Hüquq

I. Ərizələrin birləşdirilməsi

28. Məhkəmə qaydalarının 42 § 1 qaydasına əsasən, Məhkəmə ərizələrin eyni faktiki və hüquqi əsaslarını nəzərə alaraq onları birləşdirməyi qərara alır.

II. Konvensiyanın 1-ci Protokoliunun 3-cü maddəsinin güman edilən pozuntusu

29. Ərizəçilər Konvensiyanın 1-ci Protokoliunun 3-cü maddəsinə və Konvensiyanın 13-cü maddəsinə istinad edərək şikayət etdilər ki, onların dairələri üzrə DSK-nın səsvermə nəticələrinin Seçki Məcəlləsinin tələblərinə güman edilən uyğunsuzluğu səbəbindən ləğv edilməsi qanunsuz və əsassız idi. Seçki nəticələrinin ləğv edilməsinə dair Konsitusiya Məhkəməsinin qərarınının faktiki əsasları yox idi, o, yerli qanunvericiliyə zidd idi və ədalətli məhkəmə araşdırması hüququnu pozurdu. Xüsusilə Konstitusiya Məhkəməsinin qərarında hansı konkret sənədlərin araşdırılması, seçki məcəlləsinin hansı konkter tələblərinin pozulması və DSK protokollarında müəyyən edilən çatışmamazlıqların xüsusi mahiyyəti barədə heç bir məlumat yox idi. Konstitusiya Məhkəməsinin qərarı qəti olduğu üçün güman edilən pozuntu ilə bağlı heç bir hüquqi vasitə mövcud deyildi.

30. Məhkəmə hesab edir ki, bu şikayət yalnız Konvensiyanın 1-ci Protokolunun 3-cü maddəsi çərçivəsində araşdırılmalıdır və 13-cü maddə çərçivəsində ayrıca araşdırmaya ehtiyac yoxdur. 1-ci Protokolun 3-cü maddəsində deyilir:

"Razılığa gələn Yüksək Tərəflər qanunverici hakimiyyət orqanını seçərkən xalqın öz iradəsini sərbəst ifadə edə biləcək şəraitdə, ağlabatan dövriliklə gizli səsvermə yolu ilə azad seçkilər keçirməyi öhdələrinə götürürlər"

A. Qəbuledilənlik

31. Məhkəmə şikayətin Konvensiyanın 35 § 3 (a) maddəsində nəzərdə tutulan mənada açıq-aydın əssasız olmadığını qeyd edir. O, həmçinin şikayətin digər əsaslarla qəbul edilməyən olmadığını qeyd edir. Beləliklə, o qəbul edilən hesab edilməlidir.

B. İşin mahiyyəti

*1. Tərəflərin təqdimatı*

32. Ərizəçilər Konstitusiya Məhkəməsinin qərarının "heç bir hüquqi əsasının olmamasını" və onun sadəcə "siyasi sifariş nəticəsi" olmasını qeyd etdilər. Onların mövgeyinə görə onların maraqlı tərəf qismində hüquqlarına riayət edilməmişdi, çünki onların iclasda iştirakına və ya Konstitusiya Məhkəməsi haqqında qanunun 42 və 43-cü maddələrində nəzərədə tutulan prosedur hüquqlarının həyata keçirilməsinə icazə verilməyib. Ərizəcilər həmçinin qeyd etdlər ki, Konstitusiya Məhkəməsi seçki nəticələrini çox qısa müddət ərzində yoxlayıb və araşdırılmalı materialların həcmini nəzərə alaraq, belə araşdırma hərtərəfli ola bilməzdi. Konstitusiya Məhkəməsinin qərarına əsasən qərar adı çəkilməyən və müəyyən edilməyən mütəxəssislərin köməyi ilə qəbul edilib, lakin qanuna əsasən məhkəməyə ekspertlər çağrılmalı idi, çünki yalnız ekspertlər milli qanunvericiliyə əsasən yalnış rəy verdiklərinə görə məsuliyyət daşıyır. Və nəhayət ərizəçilər qərarın tamamilə əsassız olduğunu və onların seçki dairələrində səsvermə nəticələrinin və müvafiq DSK protokollarının Seçki Məcəlləsinin tələblərinə uyğun gəlməməsi nəticəsinin əsasları barədə heç bir təfərrüatın verilməməsi barədə şikayələrini təkrarladı.

33. Hökümət qeyd etdi ki, milli qanunvericilik ərizəçilərin Konstitusiya Məhkəməsində iştirakını tələb etmirdi, çünki Konstitusiya Məhkəməsi haqqında qanunun 42-ci və 43-cü maddələri "ümumi müddəalardı" və həmin qanunun 54-cü maddəsi "xüsusi müddəa" olaraq yalnız DSK sədri və üzvlərinin bu cür icraatda iştirakını tələb edirdi. Hökümət həmçinin qeyd etdi ki, Konstitusiya Məhkəməsinin araşdırmanın mümkün nəticəsi barədə "əvvəlcədən müəyyən edilmiş rəyi" yox idi və bütün seçki dairələrində 2000-dən çox namizədin olmasını nəzərə alaraq bütün namizədlərin icraatda "maraqlı tərəf" qismində iştirak etməsi prosesi "mümkünsüz və mənasız" edə bilərdi.
Daha sonra Hökümət qeyd etdi ki, mütəxəssislərin iştirakı qanuna uyğun idi, çünki Seçki Məcəlləsinin 177.3-cü maddəsi bunu nəzərdə tutur. Və nəhayət Dövlət ərizəçilərin "Konstitusiya Məhkəməsinin qərarında hansı konkret sənədlərin araşdırılması, Seçki Məcəlləsinin hansı konkrer tələblərinin pozulması və DSK protokollarında müəyyən edilən çatışmamazlıqların xüsusi mahiyyəti barədə heç bir məlumatın olmaması" barədə fikri ilə razılaşmadı. Bununla bağlı Hökümət qeyd etdi ki, Konstitusiya Məhkəməsi öz qərarında "mütəxəssis rəylərinə" istinad etmişdi və onlar öz növbəsində səsvermə nəticələri barədə müvafiq DSK protokollarının Seçki Məcəlləsinin hansı müddəalarına uyğun olmamasını göstərmişdir.

*2. Məhkəmənin qiymətləndirməsi*

34. İlk baxışda 1-ci protokolun 3-cü maddəsi Konvensiya və onun protokollarında təmin edilən digər hüquqlardan fərqlidir, çünki o, xüsusi hüquq və ya azadlıq kimi deyil, Razılığa

Gələn Yüksək Tərəflərin insanların fikirlərinin azad ifadəsini təmin edən seçki keçirmək vəzifəsi kimi müəyyən edilib. Lakin, Məhkəmə müəyyən edib ki, o, səs vermək və seçkidə namizədliyini irəli sürmək daxil olmaqla individual hüquqları təmin edir (bax *Mathieu-Mohin və Clerfayt Belçikaya qarşı*, 2 mart 1987-ci il, §§ 46-51, Seriya A no. 113). Məhkəmə dəfələrlə Konvensiyanın şərhi və tətbiqi ilə bağlı demokratik prinsiplərin vacibliyini vurğulayıb və xüsusilə qeyd edib ki, 1-ci Protokolun 3-cü maddəsində nəzərdə tutulan hüquqlar qanunun aliliyi ilə idarə edilən səmərəli və mənalı demokratiyanın əsaslarının qurulması və dəstəklənməsi üçün oluqca əhəmiyyətlidir. (ibid., § 47; bax həmçinin *Hirst Birləşmiş Krallığa qarşı (no. 2)* [GC], no. 74025/01, § 58, ECHR 2005-IX).

35. 1-ci protokolun 3-cü maddəsində nəzərdə tutulan hüquqlar mütləq deyil. Onlara "nəzərdə tutulan" məhdudiyyətlər tətbiq edilə bilər və Razılığa Gələn Tərəflər seçki sahəsində geniş mülahizə sərbəstliyinə malikdir (bax *Mathieu-Mohin və Clerfayt*, yuxarıda qeyd edilib, § 52; *Matthews Birləşmiş Krallığa qarşı* [GC], no. 24833/94, § 63, ECHR 1999-I; və *Labita İtaliyaya qarşı* [GC], no. 26772/95, § 201, ECHR 2000-IV). Lakin, Məhkəmə son vasitə kimi 1-ci Protokolun 3-cü maddəsinin tələblərinə riayyət edilməsini yoxlayır. Xusüsilə o, belə bir qənaətə gəlməlidir ki, şərtlər sözügedən hüquqların mahiyyətinə zərər gətirən və ya onları səmərəliyindən məhrum edən dərəcədə bu hüquqları məhdudlaşdırmır, qanuni məqsəd güdür və istifadə edilən vasitələr disproporsional deyil (bax *Mathieu-Mohin və Clerfayt*, yuxarıda qeyd edilib, § 52 və *Gitonas və digərləri Yunanıstana qarşı*, 1 iyul 1997-ci il, § 39, *Qərarlar barədə hesabatlar* 1997-IV). Belə şərtlər qanunverici orqanın seçilməsində insanların azad ifadəsinə xələl gətirməməlidir, digər sözlə onlar ümumi seçki hüququ vasitəsilə insanların iradəsinin müəyyən edilməsinə yönələn seçki prosesinin açıqlığı və səmərəliyinə zidd olmamalı və əksinə bu prinsipləri əks etdirməlidir (bax *Hirst (no. 2)*, yuxarıda qeyd edilib, § 62).

36. Bundan əlavə insan hüquqlarının müdafiəsinə dair sənəd olan Konvensiyanın məqsədi və hədəfi tələb edir ki, onun maddələri elə tövsif və tətbiq edilsin ki, nəzərdə tutulan müddəalar nəzəri və xəyali deyil, praktiki və səmərəli olsun (bax, digər presedentlərlə yanaşı *Türkiyənin Birləşmiş Kommunist Partiyası və digərləri Türkiyəyə qarşı*, 30 yanvar 1998-ci il, § 33, *Hesabatlar* 1998-I; *Chassagnou və digərləri Fransaya qarşı* [GC], nos. 25088/94, 28331/95 və 28443/95, § 100, ECHR 1999-III; və *Lykourezos Yunanıstana qarşı*, no. 33554/03, § 56, ECHR 2006-VIII). 1-ci Protokolun 3-cü maddəsində nəzərdə tutulan və həqiqi demokratik rejim anlayışının ayrılmaz hissəsi olan seçkidə namizədliyini irəli sürmək hüququndan hər hansı şəxsin istənilən zaman əsassız məhrum edilməsinin mümkün olması bu hüququ xəyali hüquq edərdi. Nəticə etibarı ilə, Dövlətlər namizədlərə dair uyğunluq şərtlərinin müəyyən edilməsi sahəsində geniş mülahizə sərbəstliyinə malik olsalar da, hüquqların səmərəliyi prinsipi tələb edir ki, uyğunluğun yoxlanılması prosedurları özbaşına qərarların qabağını almaq üçün yetərli təminatlar nəzərdə tutsun. (bax *Podkolzina Latviyaya qarşı*, no. 46726/99, § 35, ECHR 2002-II). Baxmayaraq ki, bu prinsip əvvəlcə seçkidə namizədlərin irəli sürülməsinə dair tələblərlə bağlı müəyyən edilmişdi, özbaşınalığın qabağının alınmasını tələb edən prinsip eynilə individual seçki hüquqlarının səmərəliyinin gündəmə gəldiyi digər vəziyyətlərə də aiddir (bax *Nemət Əliyev Azərbaycana qarşı*, no. 18705/06, § 72, 8 aprel 2010-cu il), seçki nəticələrinin araşdırılması və səsvermə nəticələrinin ləğv edilməsi də daxil olmaqla (bax *Kovach Ukraynaya qarşı*, no. 39424/02, § 55 et seq., ECHR 2008-...).

37. Məhkəmə vurğulayır ki, seçkilərin keçirilməsinə görə məsuliyyət daşıyan dövlət orqanları şəffaf şəkildə fəaliyyət göstərməli, siyasi manipulasiyadan kənar olaraq müstəqillik və qərəzsizliyini qorumalı (bax *Gürcüstanın Əmək Partiyası Gürcüstana qarşı*, no. 9103/04, § 101, 8 iyul 2008-ci il), həyata keçirdikləri icraatda özbaşınalığa qarşı minimal təminatlar nəzərdə tutmalı və qərarlarını yetərli dərəcədə əsaslandırmalıdır (bax, *mutatis mutandis*, *Nemət Əliyev*, yuxarıda qeyd edilib, §§ 81-90 və *Kovach*, yuxarıda qeyd edilib, §§ 59-60). Bundan əlavə, vaxt məhdudiyyəti və seçki prosesinin ləngiməsinə imkan verməmək məqsədilə qısa müddətlərin müəyyən edilməsi zərurəti çox bi halda əsaslandırılmış olsa da, seçki prosedurlarının səmərəliyinin azaldılması üçün bəhanə olmamalıdır (see, *mutatis mutandis*, *Nemət Əliyev*, yuxarıda qeyd edilib, § 90).

38. Bu işin halları ilə bağlı, Məhkəmə qeyd edir ki, Konstitusiya Məhkəməsinin qərarı faktiki və hüquqi əsaslandırmasına görə ciddi məsələlər qaldırır. Daha dəqiq, qərarda istinad edilən yeganə faktiki təffərüat Konstitusiya Məhkəməsinin Baş Prokurorluqdan birinci ərizəçinin seçki dairəsində on seçki məntəqəsinin sədr və üzvləri barədə "seçki sənədlərinin saxtalaşdırılmasına" və "vəzifə səlahiyyətlərindən sui-istifadəyə" görə ikinci ərizəçinin dairəsi üzrə DSK-nın dörd üzvü barədə cinayət işinin açılmasına dair məktubun alınması idi. Lakin, Məhkəmə hesab edir ki, daha ətraflı təfərrüatların olmadığı halda, sadəcə cinayət işinin açılması faktı və güman edilən və qeyri-müəyyən şəkildə təsnif edilən pozuntular istənilən dairə üzrə bütövlüklə seçki nəticələrinin ləğv edilməsi üçün yetərli və müvafiq əsas deyil. Xüsusilə, Konstitusiya Məhkəməsi bu pozuntuların həqiqətən baş verib-vermədiyini və baş verdiyi halda həmin pozuntuların hər müvafiq dairədə seçicilərin rəyinin müəyyən edilməsinin mümkünsüz edəcəyi dərəcədə seçki nəticələrinə ciddi təsir edib-etmədiyini müəyyən etməyib. Bundan əlavə birinci ərizəçinin dairəsi ilə bağlı, Məhkəmə qeyd edir ki, on seçki məntəqəsi üzrə seçki nəticələri MSK tərəfindən artıq ləğv edilmişdir, və o, müəyyən etmişdir ki, bu pozuntular seçkinin nəticələrinin ləğv edilməsini tələb edən dərəcədə dairə üzrə nəticələrə təsir etməyib. Beləliklə, bu on məntəqə üzrə pozuntulara dair məsələ MSK tərəfindən artıq araçdırlımışdır. Belə olduğu halda güman edilən eyni pozuntuların eyni məntəqələr üzrə Konstitusiya Məhkəməsi tərəfindən yenidən yoxlanılmasını anlamaq çətindir.

39. Hər bir halda və ən vacibi, Konstitusiya Məhkəməsinin qərarı DSK protokollarında hansı çatışmamazlıqların olmasını, seçki qanunvericiliyin hansı spesifik müddəalarının və nə cür pozulmasını, və həmin pozuntuların səslərin hesablanmasına necə təsir etməsini və onların seçicilərin seçiminin müəyyən edilməsini mümkünsüz edəcəyi qədər ciddi olmasını müəyyən etməmişdir. Bundan əlavə, o, Konstitusiya Məhkəməsinin hansı "əlavə sənədlərin" tələb edib araşdırılmasını, dəvət edilən "mütəxəssislərin" kim olmasını və onların nə barədə rəy verməsini və yuxarıda göstərilən məlumatlar çərcivəsində Seçki Məcəlləsinin səsvermə nəticələrinin ləğv edilməsi ilə bağlı ciddi prosedural tələblərinə riayyət edilməsi (see bax yuxarıdakı 20-23-ci bəndlərə) və sairə məsələlər barədə məlumat vermirdi. Bütün bu vacib məsələlər cavabsız qalmışdır və ya sadəcə onlara fikir verilməmişdir.

Belə halda Məhkəmə yalnız mübahisə edilən qərarın həm faktiki hallarına, həm də hüquqi əsaslandırmasına görə əsaslandırılmamış olması nəticəsinə gələ bilər.

40. Bundan əlavə görünür ki, maraqlı tərəflər, qalib namizəd olan hər iki ərizəçi də daxil olmaqla bu icraatdan xaric edilmişdi. Xüsusilə də, onlara Konstitusiya Məhkəməsinin qərarının

əsasını təşkil edən sənəd və ya mütəxəssis rəylərini və ya qərarın əsaslandırılması üçün istifadə edilən hər hansı digər sənədi almaq imkanı verilməmişdir. Həmçinin onlara iclasda iştirak etmək və ya digər yazılı və ya şifahi şəkildə öz maraqlarını müdafiə etmək imkanı verilməmişdir. Məhkəmənin rəyinə görə, Konstitusiya Məhkəməsinin qərarı qəti olduğu üçün və eyni zaman hər iki ərizəçinin və müvafiq dairələrdə minlərlə seçicinin müvafiq seçki hüquqlarının səmərəli həyata keçirilməsinə ciddi təsir etməsini nəzərə alaraq maraqlı tərəflərə hər hansı prosedur təminatların verilməməsi vəziyyətin düzəldilməsi üçün şikayətin mümkün olmaması səbəbindən xüsusilə ciddi görünür.

Məhkəmə bütün maraqlı tərəflərin prosesə dəvət edilməsi nəticəsində prosesin "mümkünsüz və mənasız" edilməsi barədə Hökümətin fikri ilə razılaşmır. Birincisi bütün seçki dairələrindən bütün namizədlərin iştirakının təmin edilməsinə açıq-aydın ehtiyac yox idi, cünki onların əksərinə bu məsələ toxunmamışdır. İkincisi, araşdırmanın mümkün nəticəsi barədə "əvvəlcədən müəyyən edilmiş rəy" olmadan Konstitusiya Məhkəməsinin icraata başlaya bilməsi, araşdırmanın hər hansı məqamında müvafiq dairələrdə müəyyən problemlərin olduğu müəyyən edildiyi halda, müvafiq maraqlı tərəflərin iştirakının sonradan təmin edilməsinə maneə ola bilməzdi.

41. Yuxarıda qeyd edilənləri nəzərə alaraq Məhkəmə belə nəticəyə gəlir ki, ərizəçilərin seçki dairələrində seçki nəticələrinin ləğv edilməsinə dair Konstitusiya Məhkəməsinin qərarı heç bir müvafiq və yetərli səbəblərə əsaslanmamışdır və maraqlı tərəflərə heç bir prosedur təminat verməmişdir və şəffaf deyildi. Mahiyyətcə mübahisə edilən qərar ərizəçiləri parlamentə seçilmək üstünlüyündən əsassız məhrum etdi. Beləliklə, o, ümumi seçki hüququ vasitəsilə insanların iradəsinin müəyyən edilməsi məqsədini güdən seçki prosesinin düzgünlüyünü və səmərəliyini təmin etmək marağına zidd idi.

42. Beləliklə, Konvensiyanın 1-ci Protokolunun 3-cü maddəsi pozulmuşdur.

III. Konvensiyanın 14-cü maddəsinin iddia edilən pozuntusu

43. Yuxarıda qeyd edilən şikayətlə yanaşı, iddiaçılar seçkilərdə açıq-aydın qələbə çalmalarına baxmayaraq müxalif partiyanın üzvü olduğu səbəbindən Parlamentdəki mandatlarından məhrum edilməsindən şikayətləndi. Onlar aşağıdakıları nəzərdə tutan 14-cü maddəyə istinad etdi:

"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.."

44. Məhkəmə qeyd edir ki, bu şikayət yuxarıda qeyd edilən şikayətlə əlaqəlidir və beləliklə, qəbul edilən hesab edilməlidir.

45. Lakin, 1-ci Protokolun 3-cü maddəsi ilə bağlı yuxarıda qeyd edilən nəticəni nəzərə alaraq, Məhkəmə qərara alır ki, bu işdə 14-cü maddənin pozulub-pozulmamasının müəyyən ediləsinə ehtiyyac yoxdur.

## IV. KONVENSİYANIN DİGƏR İDDİA EDİLƏN POZUNTULARI

### A. Konvensiyanin 6-cı maddəsi

46. Ərizəçilər Konstitusiya Məhkəməsindəki icraat zamanı Konvensiyanın 6-cı maddəsində göstərilən ədalətli məhkəmə araşdırması hüququnun pozulmasından şikayətləndi. Bu maddədə deyilir:

"Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən …. məhkəmə vasitəsi ilə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir…."

47. Məhkəmə qeyd edir ki, sözü gedən icraat ərizəçilərin parlament seçkilərində namizəd qismində çıxış etmək hüququnun müəyyən edilməsinə toxunurdu. Beləliklə, bu mübahisə ərizəçilərin siyasi hüquqlarına toxunurdu və Konvensiyanın 6.1-ci maddəsində nəzərdə tutulan mənada "mülki hüquq və vəzifələrlə" əlaqəli deyildi (bax *Pierre-Bloch Fransaya qarşı*, 21 oktyabr 1997-ci il, § 50, *Hesabatlar* 1997-VI; *Çerepkov Rusiyaya qarşı* (dec.), no. 51501/99, ECHR 2000-I; *Ždanoka Latviyaya qarşı* (dec.), no. 58278/00, 6 mart 2003-cü il və *Mutəlibov Azərbaycana qarşı* (dec.), no. 31799/03, 19 fevral 2004-cü il). Beləliklə, Konvensiyanın bu maddəsı şikayətin mövzusu olan məhkəmə proseslərinə tətbiq edilmir.

48. Nəticə etibarı ilə, bu şikayət 35 § 3 (a) maddədə əks edilən məna çərçivəsində Konvensiyanın müddəalarına *ratione materiae* uyğun deyil və 35 § 4 maddəsinə uyğun olaraq rədd edilməlidir.

### B. Digər şikayətlər

49. Konvensiyanın 13-cü maddəsinə istinad edərək ərizəçilər ümumi şəkildə yerli hakimiyyət orqanları tərəfindən seçki şikayətləri araşdırılarkən müxalif namizədlərin üzləşdiyi müxtəlif çətinliklərdən və müxalif namizədlərlə bağlı işlərdə hüquqi vasitələrin praktiki qeyri-səmərəliyi barədə şikayət etdi. Bundan əlavə, Konvensiyanın 1-ci Protokolunun 1-ci maddəsinə əsaslanaraq ərizəçilər seçki hüquqlarının pozulması nəticəsində seçki kampaniyaları dövründə xərclənmiş maliyyə vəsaitlərinin səmərəli təsirindən yararlamaq imkanından məhrum edilməsindən şikayətləndi.

50. Lakin əldə edilən iş sənədlərinə əsasən və şikayətlə bağlı məsələlərə dair öz səlahiyyəti çərçivəsində, Məhkəmə müəyyən edir ki, bu sənədlər Konvensiya və ya onun protokollorunda əksini tapmış hüquq və azadlıqların pozuntusunun heç bir əlamətini əks etdirmir. Nəticə etibarı ilə, bu şikayətlər açıq-aydın əsassız hesab edilir və Konvensiyanın 35-ci maddəsinin 3 (a) və 4-cü bəndlərinə əsasən rədd edilməlidir.

## V. KONVENSİYANIN 41-Cİ MADDƏSİNİN TƏTBİQİ

51. Konvensiyanin 41-ci maddəsi bunları nəzərdə tutur:

"Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən

aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.”

A. Ziyan

1. *Maddi zərər*

(a) Birinci ərizəçi

52. Birinci ərizəçi onun dairəsi üzrə seçki nəticələrinin ləğv edilmədiyi və onun Milli Məclisə seçildiyi halda parlament üzvü kimi alacaq maaşını nəzərə alaraq, əldən çıxan gəlirə görə 122,880 Azərbaycan manatı məbləğində maddi ziyanın ödənilməsini tələb etdi. O, həmçinin öz seçki kampaniyasına çəkdiyi vəsaitin səmərəli təsirinin itirilməsinə görə 14,054 manat tələb etdi.

53. Hökümət ərizəçinin tələbləri ilə razılaşmadı.

54. Seçki kampaniyası dövründə çəkilən xərclərlə bağlı tələbə gəldikdə, Məhkəmə müəyyən edilən pozuntu və tələb edilən maddi ziyan arasında heç bir səbəb-nəticə əlaqəsi müəyyən etmir və, beləliklə, tələbin bu hissəsini rədd edir.

55. Əldən çıxan gəlirlə bağlı, Məhkəmə qeyd edir ki, oxşar tələb Kərimova Azərbaycana qarşı işdə araşdırılmışdır (no. 20799/06, §§ 60-64, 30 sentyabr 2010-cu il, sonrakı istinadlarla). Xüsusilə, bu cür tələblər araşdırılarkən, nəzərə alınmalıdır ki, tələb edilən məbləğdən sözügedən müddət ərzində ərizəçinin aldığı və onun parlamentə seçildiyi halda imtina etməli olduğu digər gəlirin məbləği çıxmalıdır (bax *Lykourezos*, yuxarıda qeyd edilib, § 64 və *Kovach*, yuxarıda qeyd edilib, § 66). Kərimovanın işindəki ərizəçidən fərqli olaraq, hazırki işdə ərizəçi müvafiq dövr ərzində aldığı hər hansı digər gəliri barədə və onun “net əldən çıxmış gəliri” barədə heç bir məlumat təqdim etməyib və, beləliklə, onun “net əldən çıxan gəlirinin” hesablanması mümkün deyil. Lakin, bu işin xüsusi hallarını nəzərə alaraq, və nəzərə alaraq ki, ərizəçi 2005-ci ildə keçirilən seçkilərə qədər parlament üzvü olub və hazırki qərarda müəyyən edilən pozuntu nəticəsində 2005-ci ildə yenidən seçilməsi imkanından məhrum edilib, Məhkəmə hesab edir ki, o ala biləcək qazancdan məhrum edilib və maddi ziyana görə kompensasiya almalıdır. Buna dair, Məhkəmə müəyyən edir ki, ərizəçinin ən azı öz müddətinin bir hissəsi dövründə işləməsi və öz işinə görə müəyyən gəlir qazanması gözlənildiyi üçün o, müəyyən maddi ziyan çəksə də, bu ziyan texniki olaraq parlament üzvü qismində bütün müddət üçün hesablanan aylıq maaşların toplanması vasitəsilə hesablana bilməz (bax *Kərimova*, yuxarıda qeyd edilib, § 64). Beləliklə, nəzərə alaraq ki, ərizəçinin real əldən çıxan gəlirini hesablamaq səyləri qeyri-müəyyən olacaq və ədalətli əsasla qiymətləndirmə apararaq, Məhkəmə qərara alır ki, ərizəçiyə bu bəndlə 20,000 avro ödənilsin.

(b) İkinci ərizəçi

56. İkinci ərizəçi seçki kampaniyası ilə əlaqədar çəkdiyi müxtəlif xərclərə görə 9,500 AZM tələb etdi.

57. Hökümət bu tələblə razılaşmadı və qeyd etdi ki, ərizəçi bu xərcləri təsdiq edən heç bir sənəd təqdim etməyib.

58. Məhkəmə müəyyən edilən pozuntu ilə iddia edilən maddi ziyan arasında səbəb-nəticə əlaqəsi müəyyən etmədiyi üçün bu tələbi rədd edir.

2. *Mənəvi ziyan*

59. Mənəvi ziyana görə birinci ərizəçi 20,000 avro, ikinci ərizəçi isə 18,000 AZM tələb etdi.

60. Hökümət qeyd etdi ki, bu tələblər həddindən artıqdır və ziyan sadəcə pozuntunun müəyyən edilməsi ilə kompensasiya edilir.

61. Məhkəmə hesab edir ki, ərizəçilərə mənəvi ziyan vurulub və bu ziyan sadəcə 1-ci Protokolunun 3-cü maddəsinin pozuntunun müəyyən edilməsi ilə kompensasiya edilə bilməz. Ədalətli əsasla qərar çıxararaq, Məhkəmə hər ərizəçiyə 7 500 avro məbləğində mənəvi ziyanın ödənilməsi (tələb edilən verginin məbləği əlavə edilərək) qərara alır.

B. Xərclər və məsrəflər

62. Birinci ərizəçi hüquqi xidmətlər, tərcümə və poçt xərcləri daxil olmaqla xərclər və məsrəflərə görə 5,900 avro tələb etdi. İkinci ərizəçi hüquqi xidmətlər, tərcümə və poçt xərcləri daxil olmaqla xərclər və məsrəflərə görə 4,850 tələb etdi.

63. Hökümət bu tələblərlə razılaşmadı.

64. Məhkəmənin presedentlərinə əsasən ərizəçi yalnız o halda ödənilmiş xərclər və məsrəflərin əvəzini almaq hüququna malikdir ki, bu xərclər həqiqətən və zərurət olduqda çəkilib və onların məbləği ağlabatandır.

65. Hazırki işdə Məhkəmə qeyd edir ki, sikayətçilər eyni vəkil tərəfindən təmsil edilmişdir və hər iki işdə şikayətlər və hüquqi arqumentlər eyni və ya oxşar idi, vəkilin təqdimatının böyük hissəsi də hər iki işdə eyni idi. Eynilə, tərcümə edilən mətnin böyük hissəsi də hər iki iş üzrə eyni idi. Və nəhayyət, Məhkəmə qeyd edir ki, tələb edilən xərc və məsrəflərin bütün məbləğləri sənədlərlə təsdiq edilməyib. Yuxarıda qeyd edilənləri, Məhkəmədə olan sənədləri və yuxarıda qeyd edilən meyarı nəzərə alaraq, Məhkəmə hər iki ərizəçiyə xərclər və məsrəflərə görə birgə ümumi 3,000 avro və həmin məbləğə vergi hesablandığı halda həmin vergi məbləğinin ödənilməsini qərara alır.

**C. Gecikdirməyə görə faizlər**

66. Məhkəmə cərimə faizinin Mərkəzi Avropa Bankındakı satış kursu əsasında hesablanması və onun üzərinə müvafiq üç faiz dərəcəsinin əlavə edilməli olduğunu müəyyən edir.

*Bu səbəblərə görə məhkəmə yekdilliklə*

1. *Qərara alır ki, ərizələr birləşdirilsin*;

2. Konvensiyanın 1-ci Protokolun 3-cü maddəsi və Konvensiyanın 14-cü maddəsi ilə verilən şikayətləri qəbul edilən, ərizələrin digər hissələrini isə qəbul edilməyən elan edir;

3. *Qərara alır ki, Konvensiyanın* 1-ci Protokolunun 3-cü maddəsi pozulub;

4. Qərara alır ki, Konvensiyanın 14-cü maddəsi çərcivəsində şikayətin ayrıca araşdırılmasına ehtiyac yoxdur;

5. Qərara alır ki,

a) bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndi əsasında qüvvəyə mindiyi tarixdən sonra üç ay ərzində cavabdeh dövlət aşağıdakı məbləğləri, ödəmə günü tətbiq edilən məzənnəyə əsasən Azərbaycan manatına çevirməklə, ərizəçilərə ödəməlidir:

(i) birinci ərizəçi cənab Əli Kərimliyə maddi ziyana dair 20,000 avro (iyirmi min avro)

(ii) Mənəvi ziyana görə hər ərizəçiyə 7,500 avro (yeddi min beç yüz) və hər hansı vergi tətbiq edilərsə onun məbləği əlavə olaraq ödənilməlidir

(iii) Xərclər və məsrəflərə görə hər iki ərizəçiyə ümumi olaraq 3,000 avro (üç min avro) və hər hansı vergi tətbiq edilərsə onun məbləği əlavə olaraq ödənilməlidir

(b) yuxarıda qeyd edilən müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər yuxarıda qeyd edilən ödənilməli məbləğlərin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə bərabər olan adi faiz məbləği əlavə olunmalı və onun da üzərinə daha üç faiz əlavə edilməlidir;

6. Əvəzin ədalətli ödənilməsi ilə bağlı ərizəçinin qalan tələblərini rədd edir.

İngilis dilində tərtib olunub və Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2 və 3-cü bəndlərinə müvafiq olaraq, qərar barədə məlumat yazılı şəkildə 10 yanvar 2012-ci ildə göndərilib.

Søren Nielsen Nina Vajić Bölmə Sədri

Kərimli və Əlibeyli Azərbaycana qarşı